# “BİR GƏNCİN MANİFESTİ” ƏSƏRİNDƏ TƏBİƏT TƏSVİRLƏRİ

**Sərraf Talıbov**

*AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi*
*sarraftalib56@gmail.com*

Akademik Nərgiz Paşayevanın yazdığı kimi, “Mir Cəlal Paşayev "Kölgədə bitən ağacın kölgəsi olmaz” devizini əsas tutaraq” bir-birindən dəyərli sənət əsərləri yaratmaqla Azərbaycan nəsrində özünəməxsus yer tutmuşdur. Onun əsərləri lakonikliyi, məna dolğunluğu ilə seçilir, təbiət təsvirlərindən məharətlə istifadə edən görkəmli yazıçı oxucunun ürəyinə yol tapa bilir. Usta yazıçının əsərlərində – istər povest və romanlarında, istərsə də rəngarəng mövzulu hekayələrində öz təbiiliyi, inandırıcılığı, vətən təbiətinə sonsuz məhəbbəti ilə seçilən təsvirlər əsərin əsas qayəsinin açılmasında açar rolunu oynayır. Ədibin yaradıcılığının manifesti olan “Bir gəncin manifesti” adlı romanı bu cəhətdən səciyyəvi xarakter daşıyır. Doğma təbiət

təsvirləri ilə zəngin əsərdə bəzi parçalara diqqət yetirməklə bu böyük şəxsiyyətin vətən eşqilə çırpınan qəlbinin səsini eşitmək mümkündür.

Yazıçının təbiət leksikası obrazlı və ifadəli vasitələrlə və üslub zənginliyi ilə fərqlənir. O, doğma yurdun gözəlliyini tərənnüm edir: Geniş tarlalar, gözəl çaylar, mavi səmalar, "Bağçalar dərəsi", "əkin yerləri", "tut ağacı". Bütün bunlarla Mir Cəlal bir tərəfdən oxucunu baş verəcək hadisələrə hazırlayırsa, digər tərəfdən öz doğma torpağının unikallığını göstərir. Mənzərə təsvirlərində yazıçı müxtəlif vizual və ifadəli vasitələrdən məharətlə istifadə edir: "Bağçalar dərəsinin sağ tayında cənuba doğru uzanıb gedən və təzəcə şumlanan əkin yerləri məxmər kəmər kimi dağları qucmaqda idi. Zəmilərdən qalxan nəmli torpaq qoxusu yenicə açılan bənövşə, quzuçiçəyi ətrinə qarışaraq havaya bır təzəlik, mülayimlik gətirmişdi... Buludlu göy intizar çəkən bir qəlb kimi çırpınır, bir an da eyni vəziyyətdə qalmırdı." Müəllif burada təbiət və insan bağlılığını səmimi şəkildə qələmə alır. Təbiətin insan kimi nəfəs almasını, buludlu göyün insan ürəyi kimi çırpınmasını inandırıcı şəkildə bizə çatdırır. Bu ifadələr bizi sanki Səttar Bəhlulzadənin, Maral Rəhmanzadənin rənglərinin ağuşuna atır.

Səhərin açılışını, günəşin səmada hərəkətini təbii boyalarla təqdim edən müəllif yazır: "Cida boyu qalxan günəş cənuba axan müxtəlif biçimli, müxtəlif şəkilli, əlvan buludlar arxasında gah çıraq kimi yanır, gah köz kimi sönür, gah kəhrəba kimi saralır, gah sədəf kimi parıldayırdı." Yazıçının real təsvirləri bizi sanki 4 ölçülü formatda yazılan süjetin axarına cəlb edir. Filologiya elmləri doktoru A.Eminovun yazdıqlarından: "Mir Cəlal əsərlərində insan hisslərini təbiətdən ayırmır, harmoniyada təsvir edib, onun üçün Günəş, Ay, Meşə, Quşlar, Sular rəmzi məna daşıyıb, insan xarakterinin açılmasını əyaniləşdirib. Əsərlərində təbiətin predmetləri öz funksiyalarını yerinə yetirib."

Mir Cəlalın bitkiləri onun bədii dünyasının mühüm tərkib hissələrindən biridir, xüsusi semantik əhəmiyyət kəsb edir və orijinal müəllif simvolu kimi çıxış edirlər. Yazıçı adi bitkilərə xüsusi məna verərək gündəlik həyatdan yuxarı qalxır, bunun nəticəsində fitonimlər əsərin simvolik elementlərinə çevrilir. Beləliklə, "ehsan tut ağacı"nın mənası təkcə bu ağacın kənd mənzərəsində məcburi bir atribut olması ilə əlaqədar deyil, həm də yazıçının bu ağacla verdiyi rəmzi işarədir.

Aşağıda misal gətirdiyimiz sətirlərin alt qatında cəmiyyətdən narazılıq hissi bizə gəlib çatır. Doğma təbiətə xas ağacları sadalamaqla yanaşı, müəllif onların sərt küləyə sinə gərdiyini, sanki insanlar kimi bu dözülməz mühitdən ayrılıb getmək istədiklərini real boyalarla açıb göstərir: "Karvan-karvan ötən qalın seyrək buludlar ardınca nəsə bir aydınlıq, bir parlaq gündüz olacağı yəqin idi. Aşağılarda, dərənin qovuşan yerlərində isə baş-başa verən söyüd, qələmə, qarağac, vən, iydə, zoğal ağacları küləyin səmtinə doğru can atmaqda, sanki kökdən çıxıb haralara isə getmək arzusunda idilər." Bu təkcə söyüd, qələmə, qarağac, vən, iydə, zoğal ağacı deyil, həm də Mərdandır, Gənc cütçüdür, Bahardır, Sonadır...

Müəllif digər parçada qeyd edir: "Dağlardan axıb, səhraları aşıb gələn sel suları isə elə şaqqıldayırdı ki, eşidənlər dəhşətdən diksinir, göy gurladığını, ildırım çaxıb qaya uçduğunu, sar üstünə qartal şığıdığını güman edirdilər." Bu qısa parçada ədib dağlar, səhralar, sel suları, göy, ildırım, qaya, sar və qartal kimi leksik vahidlərdən istifadə etməklə öz düşüncələrini ifadə edir. Əsərdə daşan çay və əsən külək təsvirləri fırtınalı zamanların, yeni, naməlum və ya uğursuz bir zamanın, tutqun hava isə naməlum gələcəyin simvolu kimi səslənir. Bununla müəllif bir tərəfdən vəziyyətin getdikcə gərginləşəcəyinə işarə etməklə sadə insanların hansı əzab və əziyyətdən keçdiklərini, bir gün insan qəzəbinin bu sel kimi çağlaya biləcəyini oxucuya çatdırmağa çalışır.

Əsərdəki çoxsaylı zoonim və fitonimlər diqqəti cəlb edir. Bu proses əsər boyu davam edir və hər dəfə müəllifin vermək istədiyi siqnalları oxucuya çatdırır:

"Dolayda kəklik qovdum
Dağda yemlikdən doydum.
Mənə bol ruzi verən,
Torpağa nişan qoydum."

Ədib yenə şirin təhkiyə dili, məhrəm təbii təsvirləri ilə qəhrəmanın ümdə arzularına işıq salır:

“Dağlar, bizə qar göndər,
Əsirgəmə var göndər.
Baharda selin olsun.
Payızında bar göndər...”

Bu bayatılarda “dağlar, qar, bahar, sel, payız, bar, yaz, qanadlı at” kimi leksik vahidlərdən istifadə etməklə müəllif dogma eli-elatı bizə yaxından tanıdır. Hamıya dogma olan bu ifadələr əsərə diqqətimizi daha da artırır.

Digər bir parçada gənc qəhrəmanın keçirdiyi hissləri, yaşantılarını müəllif belə təsvir edir: “Cavan oğlan sanki göylərə səpdiyi, yaz küləyinə verdiyi mahnıları ilə sinəsini boşaltdı, özündə bir yüngüllük duydu... Sanki bir anda kimsə, hansı bir qüvvə isə buludları qovub üfüqləri gümüş kimi təmizlədi.” Cütçü gəncin günəşlə qarşılaşdırılması, günəşin ədalət, xeyirxahlıq simvolu kimi təsviri diqqəti cəlb edir: “Cavan cütçü başını göyə qaldıranda günorta yerinə qalxan günəşin bütün gücü və əzəməti ilə dayandığını gördü. Sanki bayaq oxunan mahnılardakı həsrət və arzuları günəş eşitmişdi. Ona görə, məhz ona görə dünyaya, hər şeydən əvvəl bu zəhmətli kövşənlərə, cütçülər yurduna həmişəlik və ümumi bir aydınlıq gətirmişdi.”

Günəş təkcə xeyir-bərəkət rəmzi kimi yox, həm də müdriklik simvolu kimi gənci gələcəkdən xəbərdar edir: “ … hərarətli şüaları ilə adamları, hər kəsdən əvvəl gənc sinəsi həyat həsrətlərindən yanan bu rəncbəri xəbərdar etmək istəmişdi. Cavan oğlana elə gəldi ki, günəş göylərin yuxarı qatından enib gəlmiş, lap ona yaxınlaşmışdır. Səssiz, isti və nurlu baxışı ancaq bir şey deyir: – Salam! Salam!”

Bahar surətini də, cütçü obrazını da təbiətdən ayrı təsəvvür etmək mümkün deyildir. Qışın sərt şaxtasında Baharın qəlbsiz insanlar tərəfindən çölə atılması və onun faciəvi ölümü hardasa gələcəyə ümidsizlik rəmzi kimi verilsə də, gənc cütçünün ümid dolu nəğməsini, arzularını, onun günəşlə dialoqunu haçansa ədalət günəşinin doğacağı ümidlərinin bariz nümunəsi kimi saymaq olar: “...ayrı bir həyal, ayrı bir səfa, ayrı dünyadan xəbər verən, milyonların ürək arzularını duyan, oxşayan, oyadan və çiçəklədən bir bahar idi. Cütçü elə bil günəşdən qüvvət, qüdrət aldı, arzuları həqiqətə çevrildi, sevincindən bərk qışqırdı: – Ay dünya!”

Beləliklə, Mir Cəlal ilhamının mənbəyi onu əhatə edən real həyat idi, o, vətənini bütün ruhu ilə dərk edib qəbul edən, heyrətamiz, incə bir gözəllik duyğusuna sahib olmaqla, gözləri qarşısında vətəninin həyatında baş verən bu dəyişiklikləri görmüş, öz kədəri, öz sevinci ilə bütün bunları öz əsərində heyrətamiz dərəcədə dolğun və dərinliklə əks etdirə bilmişdir.

“Belə yerlərdə qaranquş, qazalaq, göyərçin, bildirçin, kəklik yuvası çox olurdu... Bahar əyiləndə kəkliyin başını gördü... Bahar onu sevincək, ikiəlli qucağına basmışdı...” Uşaq dünyasının mükəmməl təsvirinə vurulmamaq, Baharın kövrək sevincinə şərik olmamaq mümkün deyil. Müəllifin naturalizmi təkcə naturalizm xatirinə deyil, müəllif fikrinin çatdırılmasında açar rolunu oynayır. Əsər boyu təbiət leksik vahidlərinin yerli-yerində işləndiyini görmək mümkündür. Bu leksik vahidlər fitonimlər, zoonimlər, oronimlər, iqlim və relyef formalarına daxil olan ayrı-ayrı sözlər şəklində qarşımıza çıxmaqdadır.

Akademik M.Arif yazıçının təbiət təsvirlərini yüksək qiymətləndirir: “... Mir Cəlal peyzajı da canlı və təbii verir. Peyzaj əsərdəki hadisələrlə o dərəcədə bağlıdır ki, o, əsərin ayrılmaz, üzvi bir parçasına çevrilir.”

Xalçanı yada satmaqdan imtina edən Sonanın əhvalını müəllif buludlardan qurtulan günəşli səma ilə müqayisə edir: “Hava durulmuşdu. Göylər Sonanın, o məğrur ananın həyəcanına gülümsəyirdi. Qüruba doğru enən günəş ona vətən bağçasından tutulmuş qızılgül dəstəsi kimi təzə, əlvan, xoş görünürdü.”

Mir Cəlal yazırdı: “Qarıncadan yazanda da sənətkar olmaq hünərdir. Gül, bülbül onsuz da gözəldir. Əsl sənət qarıncanın gözəlliyini kəşf etməlidir.” Mir Cəlalın bu fikirləri bütün əsər boyu qırmızı xətt kimi keçir. Müəllifin qələmə aldığı daşın da, suyun da, çayın da, dağın da, ceyranın, ulağın, pəmbə buludların, tüstüyə bənzər sisin-dumanın da öz mənası var. Heç bir şey elə-belə, boş-boşuna işlənməyib. Hər mənzərə bir məna kəsb etməklə bütövlükdə əsərin qayəsini oxucuya çatdırmağa xidmət edir. Bütün əsər boyu işlədiyi təbiət təsvirləri ilə istədiyinə nail olan görkəmli sənətkar doğma vətəninin əsrarəngiz gözəlliklərini sevgi ilə vəsf etməklə, bu gözəllikləri bizə də sevdirir və bununla əvvəldən axıradək oxucu qəlbinə hakim kəsilməyi bacarır.